**UOT 338.48**

***Vüsal Vüqar oğlu CƏFƏRLİ***
***Bakı Avrasiya Universitetinin doktorantı***

# AZƏRBAYCANDA TURİZMİN REGİONAL İNKİŞAFININ ƏSAS MƏRHƏLƏLƏRİ VƏ PRİORİTETLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** turizmin inkişafına dair konsepsiyalar və dövlət proqramları ilə müəyyən edilən hədəf və prioritetlərə nail olunması yollarını müəyyən etmək və əsaslandırmaqdan ibarətdir.

**Tədqiqatın metodologiyası.** Tədqiqat işində məntiqi ümumiləşdirmə, sistemli yanaşma, təhlil və sintez metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** ölkədə turizmin inkişafının dövlət biüdcəsinin və əhalinin gəlirlərinin artırılmasına, ölkənin dünya miqyasında tanınmasına səbəb olması, eləcə də əlaqədar istehsal və xidmət sahələrinin inkişafına dəstək olması ilə əlaqələndirilə bilər.

**Tədqiqatın nəticələri.** Tədqiqat nəticəsində məlum olmuşdur ki, ölkənin turizm sektoru hələ xidmətlərin çeşidi, keyfiyyəti və qiymət səviyyəsi baxımından region ölkələrindən geri qalır. Lakin qarşıya qoyulan hədəflərə nail olunması bu geriliyin qisa müddətdə üstünlüklərə çevrilməsini şərtləndirə biər.

**Tədqiqatın orjinallığı və elmi yeniliyi.** Elmi məqalədə ixtisaslaşmış turizm fəaliyyətinin tənzimlənməsi istiqamətləri təhlil olunmuş və bu sahədə müasir dövrün çağırışları nəzərdən keçirilmişdir. Tədqiq olunan məsələ üzrə elmi ədəbiyyatda və internet məkanında olan fikir və mülahizələrin təhlili aparılmış, araşdırmanın nəticəsinin əsas məqamları müəyyən edilmişdir. Məqalənin elmi yeniliyi pandemiya dövründə turizmin inkişafı göstəricilərinin təhlili, müvafiq potensialın qiymətləndirilməsi və onun perspektiv inkişaf istiqamətlərinin əsaslandırılmasından ibarətdir.

Turizmin inkişaf etdirilməsi postneft dövründə ölkədə iqtisadi siyasətin əsas istiqamətlərindən biridir. Ona görə ki, turizmin inkişafının ölkə üçün yüksək iqtisadi və sosial effektləri vardır. Hazırkı dövrdə qeyri-neft sektorunun inkişafı istiqamətində görülən tədbirlər turizm sektoruna ciddi təsir göstərmir. Bu da pandemiyanın qlobal miqyasda turizmin inkişafını məhdudlaşdırması ilə bağlıdır. Artıq pandemiyanın azalması və ərazilərin işğaldan azad olması turizmin inkişafına yeni yanaşmaların tətbiqini tələb edir.

Təqdim olunan məqalədə turizmin inkişafına dair hədəf və prioritetlərə nail olunması istiqamətləri öz əksini tapmışdır.

***Açar sözlər: turizm, inkişaf, xidmət, keyfiyyət, mənfəət, qiymət.***

## *Giriş*

Hər bir ölkənin milli sənayesi onun təbii-iqtisadi potensialı üzərində qurulur və inkişaf edir. Azərbaycanda turizmin demək olar ki, bütün növlərinin inkişafı üzrə kifayət qədər potensial imkanlar vardır. Məlum olduğu kimi, təxminən son otuz il ərzində ölkənin turizm baxımından cəlbedici ərazilərinin bir hissəsinin işğal altında olması və nəhayət, pandemiya milli turizm sənyesinə ciddi ziyan vurmuşdur. Lakin hazırda qeyri-neft sektorunun inkişafı strategiyasının uğurla reallaşdırılması turizm sənayesində tənəzzülün qısa müddətdə aradan qaldırılacağına zəmanət verir. Ümumiyyətlə, mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycanın 2025-ci ilədək regionda və dünya ölkələri arasında cəlbedici turizm məkanlarından, 2025-ci ildən sonrakı dövr üzrə perspektivdə isə dünyada turistlərin ən çox üstünlük verdikləri iyirmi turizm məkanından birinə çevrilməsi və mövcud turizm ehtiyatlarından səmərəli istifadə göstəricilərinin yüksəldilməsi qarşıda duran vacib məsələlərdən biridir.Qeyd olunan məqsədlərə nail olmaq üçün çoxsaylı turizm növləri üzrə mövcud infrastrukturun təkmilləşdirilməsi, milli dəyərlərin beynəlxalq aləmdə uğurlu təbliği və s. mühüm əhəmiyyət kəsb edir.

**Azərbaycanda turizmin inkişafının regional aspektləri.** Azərbaycan iqtisadiyyatının çoxşaxəli inkişaf strategiyasının reallaşdırılması məqsədilə “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli inkişaf və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışlarının müəyyən olunması nəzərdə tutulmuşdur.

Strateji yol xəritəsində milli iqtisadiyyatın inkişaf strategiyasında prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizmin müəyyənləşdirilməsi bu istiqamətdə görülən işlərin davamlılığına xidmət etməklə yanaşı, Azərbaycanın cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutması imkanlarının yaradılması, eyni zamanda, qarşılıqlı əlaqələrdən və mövcud turizm potensialından səmərəli istifadə edilməklə turizm sektorunun iştirakçıları arasında əməkdaşlığın inkişaf etdirilməsi və Azərbaycanda turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədini daşıyır. Strateji Yol Xəritəsi nəzərdə tutulmuş müddət ərzində turizm sektorunun inkişafının dəstəklənməsi, beynəlxalq və yerli bazarlarda yüksək keyfiyyətli və rəqabətə davamlı turizm xidmətlərinin təklif edilməsi, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması, müasir ideya və innovasiyalara əsaslanan yeni investisiya layihələrinin həyata keçirilməsi və turizmin inkişafı ilə əlaqədar aidiyyatı orqanların fəaliyyətinin qarşılıqlı əlaqələndirilməsi kimi tədbirləri özündə ehtiva edir.

*Cədvəl 1*

***Turizm səfərləri etmiş şəxslərin ölkənin regionları üzrə bölgüsü, min nəfər***

| | 2019 | 2020 | 2020/ 2019, %-lə | Yekuna görə, % | |
|---|---|---|---|---|---|
| | | | | 2019 | 2020 |
| **Ölkə üzrə-cəmi** | **4 352,9** | **1 268,7** | **29,1** | **100** | **100** |
| Bakı şəhəri | 1584,6 | 456,2 | 28,8 | 36,4 | 36,0 |
| Abşeron iqtisadi rayonu | 331,2 | 97,2 | 29,4 | 7,6 | 7,7 |
| Gəncə-Qazax iqtisadi rayonu | 542,4 | 158,2 | 29,2 | 12,5 | 12,5 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 245,3 | 71,1 | 29,0 | 5,6 | 5,6 |
| Lənkəran iqtisadi rayonu | 308,2 | 83,2 | 27,0 | 7,1 | 6,6 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 203,2 | 58,1 | 28,6 | 4,7 | 4,6 |
| Aran iqtisadi rayonu | 761,7 | 224,5 | 29,5 | 17,5 | 17,7 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 74,8 | 21,8 | 29,0 | 1,7 | 1,7 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 104,2 | 29,2 | 28,0 | 2,4 | 2,3 |
| Naxçıvan Muxtar Respublikası | 197,3 | 69,2 | 35,1 | 4,5 | 5,5 |

*Mənbə: https://www.stat.gov.az/source/tourism/*

Azərbaycanda turizmin regionlar üzrə inkişaf etdirilməsi mühüm prioritetlərdən biri sayılır. Cədvəldən göründüyü kimi, turizmin əhəmiyyətli hissəsi Bakı şəhərinin üzərinə düşür (36%) və pandemiya şəraitində turizm səfərləri etmişlərin sayının kəskin surətdə aşağı düşməsinə (70%-dən çox) baxmayaraq, regionların payı cüzi dəyişmişdir.

Azərbaycan təbiətinin müxtəlifliyi ənənəvi olmayan turizm növlərinin inkişafına zəmin yaradır. Bu baxımdan Mədəniyyət və Turizm Nazirliyinin “Azərbaycanın yeni turist marşrutlarını kəşf edək” layihəsi çərçivəsində təqdim olunan Quba-Şamaxı ekstremal turizm marşrutu maraqlı addımlardan biri hesab oluna bilər.

Azərbaycanda çoxsaylı dağların, çayların olması da qeyri-ənənəvi turizm sahələrinin inkişafını zəruri edir. Məsələn, Kür çayında çay turizminin inkişafı üçün imkanlar var: hələ sabiq Sovetlər dövründə, 60-cı illərdə həftə sonları ailələr Şirvandan Salyan istiqamətinə kiçik qayıqlarda istirahətə gedərdilər. Bu ənənələr kiçik miqyaslı olsalar da, belə layihələrin yenidən həyata gətirilməsi turizmin çoxvektorlu inkişaf yollarının müəyyən edilməsinə xidmət göstərə bilər. Kür çayının Mingəçevirdən Neftçalaya qədər olan hissəsi (təxminən 400 km) çay turizmi üçün çox əlverişlidir.

Təbiətinin zənginliyi, müxtəlifliyi ilə fərqlənən Vətən müharibəsi nəticəsində işğaldan yeni azad edilmiş regionlarda da qeyri-ənənəvi turizm sahələrinin inkişafı üçün potensial çox böyükdür və bu sahədə sistemli işlərin aparılması, davamlı layihələrin həyata keçirilməsi artıq aktual bir ideyaya çevrilmişdir.Çalışmaq lazımdır ki, ölkəmizə gələn turistlər bu müxtəlifliyi görüb hiss etsinlər.

Ölkəmizdə alternativ turizm sahələrinin potensialı çox genişdir: “Azərbaycanda bir çox turizm sahələrinin inkişafına şərait var. Alternativ turizm marşrutları hazırlanarkən ekspertizalar aparılmalıdır. Məsələn, çay turizmi üzrə marşrut hazırlanarkən, dağ çaylarının dərinliyi, sürəti öyrənilməli, daha sonra marşrutlar işlənilməli, turistlərin təhlükəsizliyi nəzərə alınmalıdır” [2, s. 69].

**Azərbaycanda turizm bazarının regional inkişaf meyilləri**

Turizm bazarının mövcud inkişaf səviyyəsinin təhlili göstərir ki, iqtisadi islahatlar, əhalinin gəlirlərinin artması, müvafiq infrastrukturun tədricən yaxşılaşdırılması, regionların iqtisadi dirçəlişi turizm sənayesinin inkişafını təmin etmişdir. Turizm bazarında bölgələrin rolunun üstün olması və yeni tikilən yerləşmə müəssisələrinin regionların əksəriyyətini əhatə etməsi bu sahənin prioritet olmasına şərait yaratmışdır. Qeyd olunanları dağ-xizək turizminin nümunəsində daha aydın görmək olar.

Dağ-xizək turizm modelləşdirilməsində tələb və təklifin öyrənilməsi turməhsulun formalaşmasına təsir göstərən amillərdən sayılır. Ölkədə daxili turizm tələbatı elmi cəhətdən tam öyrənilməsə də, apardığımız tədqiqatlar göstərir ki, ümumdaxili məhsulun artımı, xidmətlərin yüksəlməsi, infrastruktur sahələrin təkmilləşdirilməsi əhalinin turizm tələbatına müsbət təsir etmişdir. Daxili turizm tələbatının artması ümumi iqtisadi inkişafla əlaqəli görünsə də, istirahət yerlərində xidmətin səviyyəsinin, onların maddi-texniki bazasının yüksəlməsi də öz təsirini göstərmişdir. Bu baxımdan son illər istifadəyə verilən dağ-xizək turizm kompleksləri yeni turizm növünün inkişafından xəbər verir. Belə ki, 2000-ci ilə qədər ölkənin mövcud yerləşmə müəssisələrinin əksəriyyəti Bakı şəhəri və onun ətrafının payına düşürdüsə, hazırda bu göstərici regionların lehinə dəyişmişdir. Nəzərə almaq lazımdır ki, ölkədə əsas turizm tələbatı Bakı-Sumqayıt aqlomerasiyasında formalaşır və əhali təbii landşaft ekzotikliyi ilə seçilən ərazilərə üstünlük verir. Bu da regionlarda turizmin inkişafını stimullaşdırır.

Bölgələrdə qış turizmi üçün potensialın olmasından istifadə edərək, yeni dağ-xizək turizminin təklif olunması ölkədən bu məqsədlə gedən 500 mindən çox turistin yerli xidmətlərdən istifadə etməsinə imkan vermiş olacaqdır. Şahdağ dağ regionunun dörd mərhələdə inkişaf etdirilməsi nəzərdə tutulmuşdur [6]:

- Üç beynəlxalq otel, 13 restoran və bar, hər biri 19-dan az olmayan liftləri və yolları olan xizəksürmə yamaclarının təmin edilməsi;
- Xizək liftlərinin şəbəkəsinin genişləndirilməsi, eləcə də, yayda istirahət məqsədilə rahat kotteclərin inşası;
- Gələcəkdə yaşayış zonasının genişləndirilməsi və dağətəyi ərazilərə doğru xizək cığırlarının artırılması, qondolalar və qar maşınları üçün əlavə infrastrukturların (üzmə hovuzu, tennis, futbol, basketbol zalları və örtülü idman kompleksləri) quraşdırılması;
- Yaşayış komplekslərinin, əlavə dəbdəbəli otellərin, fərdi kənd evlərinin və balaca kotteclərin sayının artırılması və çadırlarda gecələmək imkanları olan istirahət zonasının genişləndirilməsi, ticarət mərkəzləri və restoranların hazırlanması.

Qış turizminin daha çox daxili bazara istiqamətlənməsi bu sahədə olan tələbatın öyrənilməsini aktuallaşdırır. Hazırda qış turizm bazarının tam formalaşmaması bu sahədə dəqiq müştəri seqmentasiyasını aparmağa imkan vermir.

Ölkədə turizm xidmətlərinin payı son illər artsa da, bu göstəriciləri qış turizm növlərinə də aid etmək olar. Belə ki, 2010-2015-ci illər arasında bu artım çox az göstəricilərlə ifadə olunmuş və ölkə üzrə 100-120 mln manat arasında dəyişmişdir. Bu göstəricinin iki dəfədən çox artması 2012-2015-ci illərdə qış turizminin inkişafı ilə bağlı olmuşdur. Ölkədə kiçik sahibkarlara məxsus istirahət müəssisələrində istirahət edənlərin sayı son beş ildə iki dəfədən çox artmış, göstərdiyi pullu

xidmətlər isə 2015-ci ildə ümumi xidmət sahələrində göstərilən pullu xidmət 12,5% təşkil etdiyi halda 2019-cu ildə 24.7%-ə çatmışdır [7].

Azərbaycanda dağ-xizək turizminin inkişafında bir çox amillər qarşılıqlı olaraq nəzərə alınır. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar :

1. Marketinq siyasətinin düzgün qurulması və istehlakçı məmnuniyyətinin təmin olunması. Qış turizm bazarında müxtəlif növ istehlakçı seqmentasiyası fəaliyyət göstərir. Hədəf marketinqinin secilməsi konkret müştəri kütləsinə istiqamətlənmiş olur. Regionda dağ-xizək turizm sahəsində bir çox ölkələrin ənənəvi xidmətləri təklif etməsi dağ-xizək turizm komplekslərinin müəyyən müştəri kütləsinə istiqamətlənən hədəf marketinqinin seçilməsin zəruri edir. Hər bir bazar seqmentinin cəlbediciliyinin qiymətləndirilməsini, bir və ya bir neçə bazara çıxılmağın seçilməsini nəzərdə tutur. Qış turizm kompleksləri gəlirlər baxımından ən yüksək müştəri dəyərini yaratmalı və vaxt keçdikcə onu saxlaya biləcək seqmentlərini hədəfə almalıdır.

2. Qiymət siyasətinin düzgün qurulması və rəqabət davamlılığının təmin edilməsi. Ölkədə turizm xidmətlərinin ümumilikdə yüksək olması, əsasən mövsüm dövründə fəaliyyət göstərməsi, turizm şirkətləri ilə əlaqələrin zəif olmasını qeyd etmək olar [7]. İstirahət mərkəzləri heç bir turizm şirkəti ilə belə müqavilə bağlamayaraq yalnız göstərilən qiymətlərlə birbaşa və turizm şirkətləri vasitəsilə turist qəbul edirlər. Azərbaycanda real vəziyyətdə turizm şirkətləri və regionlarda yerləşən istirahət mərkəzləri arasında bu iş prosesi demək olar ki, müşahidə olunmur. İstirahət mərkəzləri mövsüm ərzində özlərini riskə atmayaraq iri müəssisələrə uzunmüddətli və əksər hallarda müqaviləsiz yerləri bron edirlər. Belə olan halda şəhərlərdə fəaliyyət göstərən turizm şirkətləri regionlarda istirahət etmək istəyən turistləri yerləşdirə bilmirlər. Xüsusilə vurğulamaq lazımdır ki, fəaliyyət göstərən istirahət mərkəzləri hətta mövsümü az turistlə başa vursalar belə şirkətləri qiymətlərlə tanış etməyə maraqlı olmurlar. Belə olan halda onlar yalnız mənfəət əldə etmək istəyində olsalar belə bunu necə etmək lazım olduğunu bilmirlər və ölkədə turizmin inkişafına, bu sənayedə fəaliyyət göstərən sahibkarlıq subyektləri arasındakı əlaqələrin yaranmasına kömək edə bilmirlər.

Şahdağ qış-yay turizm kompleksində qiymətlər tez-tez dəyişir. "Zirvə" otelində verilən məlumata görə yeni tarif siyasəti hər ay, hətta gündəlik tələbatdan asılı olaraq qiymət dəyişikliyni nəzərdə tutur. "Əgər ötən il "Zirvə" otelində bir yerlik nömrə -100 manat, iki yerlik - 140 manat, üç yerlik - 250 manat idisə, bu gün nömrənin qiyməti bir nəfər üçün 129 manat, iki nəfərlik - 145 manat müəyyən edilib, amma qiymət daim dəyişə bilir [8].

Müqayisə üçün qeyd edək ki, Uludağda 4 günlük tam pansion istirahətin qiyməti təyyarə bileti də daxil olmaqla 650 manata yaxındır. Şahdağ qış istirahət zonasında isə 4 günlük istirahət bir nəfərə ən azı 500 manat təşkil edir. Burada xidmətin keyfiyyəti yüksəkdir və xizək kanatları Şahdağ turizm kompleksindəki kanatlardan daha uzundur. Onu da qeyd edək ki, Uludağda istənilən tələbata uyğun otellər vardır. Şahdağ istirahət mərkəzində isə otellər əsasən dörd və beşulduzlu olmaqla daha bahalı xidmətlər təklif edirlər. Bununla yanaşı Uludağda oteldə qalanlar üçün bütün xidmətlər 30-40% güzəştlə təklif olunur.

Gürcüstanda Bakuryani dağ-xizək kurortlarının qiymət siyasəti də Şahdağ və Tufandağ dağ-xizək turizm mərkəzindən daha ucuzdur. Bakuryanidə turistlərə xidmət daha çox yerli əhalinin nəzarətindədir. Bakuryaniyə gələn turistlərin əksəriyyəti azərbaycanlılar olur. Kanatda gəzmək bir dollara yaxındır. Otellərin qiyməti isə çox ucuzdur. 20-150 dollar arasında tam pansion xidmət göstərən otellər tapmaq mümkündür. Göründüyü kimi, eyni xidmətləri qonşu Gürcüstan və Türkiyədə daha ucuz qiymətə tapmaq mümkündür.

Onu da qeyd edək ki, ölkədə Yeni il və Həmrəylik bayramlarında istirahət vaxtları 5-6 gün davam edir. Bu bayramlarda dağ-xizək turizm mərkəzlərinə gedənlərin sayı artmış olur. Hər bir vətəndaş bayram günlərini öz büdcəsinə uyğun keçirməyə çalışır.Vətəndaşların və Azərbaycana gələn turistlərin normal istirahətinin təşkili üçün hər il müəyyən işlər görülür. Lakin Azərbaycana gəlmək üçün müəyyən viza maneələri və ölkənin istirahət obyektlərində yaşanan mövsümi bahalaşmalar qış turizminin inkişafına problemlər yaradır. Şahdağ qış-yay turizm kompleksində yerləşən oteldəki Yeni il qiymətlərinə nəzər saldıqda xarici ölkələrə nisbətən baha olduğunu görərik.

Oteldə Yeni il ilə bağlı təşkil olunan bayram şənliyində iştirak 150-170 AZN-ə başa gəlir. Səhər yeməyi daxil iki nəfərlik otağa görə azı 250 AZN tələb olunur. Bununla yanaşı oteldə minimal olaraq 4 gecə qalmaq şərt kimi qoyulur. Qiymətlərdən belə çıxır ki, bizim ölkədə yerləşən otellər və qış turizmi obyektləri Avstriya və İsveçrədə yerləşən ənənəvi xizək kurortlarından daha bahadır. Avstriyada yerləşən eyni seqmentdən olan otellər turistlərə otaqları gecəsi 109 manata təklif edirlər. İsveçrədə isə yüksək səviyyədə xidmət təklif edən oteli gecəsi 84 manata da tapmaq olar.

Araşdırmalar göstərir ki, daxili turizmin inkişaf etdirilməsi sahəsində bəzi həll olunmamış problemlər mövcuddur.

**Cədvəl 2**

**2019-cu il ərzində turizm səfərinə çıxmayan ölkə vətəndaşlarının sayı və səbəblər üzrə bölgüsü, min nəfər**

| | Ölkə üzrə - **cəmi** | *Yekunda payı, %* | Bakı şəhəri | *Yekunda payı, %* | *Şəhərin ölkədə payı,%* |
|---|---|---|---|---|---|
| **Cəmi** | **5392,4** | **100** | **881,5** | **100** | **16,3** |
| Maddi imkanın olmaması | **987,0** | 18,3 | 102,3 | 11,6 | 10,4 |
| Ev təsərrüfatında öhdəliklərlə bağlı boş vaxtın olmaması | **1066,3** | 19,8 | 119,9 | 13,6 | 11,2 |
| İş yerində asudə vaxtının olmaması | **861,5** | 16,0 | 155,2 | 17,6 | 18,0 |
| Təhsil almaqla bağlı asudə vaxtın olmaması | **144,6** | 2,7 | 33,5 | 3,8 | 23,2 |
| Səhhətinin imkan verməməsi | **51,2** | 0,9 | 7,9 | 0,9 | 15,4 |
| Səfər edəcəyi təqdirdə təhlükəsizliyinin təmin olunmaması | **54,6** | 1,0 | 12,4 | 1,4 | 22,6 |
| Mehmanxana və ictimai iaşə obyektlərində qiymətlərin qane etməməsi | **992,6** | 18,4 | 190,4 | 21,6 | 19,2 |
| Mehmanxana və ictimai iaşə obyektlərində göstərilən xidmətlərin qane etməməsi | **838,1** | 15,5 | 144,6 | 16,4 | 17,3 |
| Səfər etməyə marağının (həvəsinin) olmaması | **271,7** | 5,0 | 90,8 | 10,3 | 33,4 |
| Digər səbəblər | **125,0** | 2,3 | 24,7 | 2,8 | 19,7 |

*Mənbə: https://www.stat.gov.az/source/tourism/*

Cədvəldən göründüyü kimi, ölkədə daxili turizmin inkişafına mane olan səbəblər arasında daha əhəmiyyətli olanları əsasən maddi imkanın olmaması, ev təsərrüfatında və iş yerində məşğulluqla əlaqədar asudə vaxtın olmaması ilə bağlıdır. Digər tərəfdən isə, cədvəldə göstərilənlərin üçdə birindən çoxu (1,8 milyon nəfərdən çox) əsas səbəb kimi mehmanxana və iaşə obyektlərində göstərilən xidmətlərin lazımi səviyyədə olmamasını və oradakı qiymətlərin daxili turizm həvəsində olanları qane etməməsini qeyd edirlər.

### *Nəticə*

Azərbaycanda turizmin müxtəlif istiqamətlərinin inkişafı üçün əlverişli şərait vardır. Vətən müharibəsindən sonra işğaldan azad edilmiş rayonların turizm potensialı da çox əhəmiyyətlidir ki, bu da həm daxili turizmin, həmçinin xarici turizmin yaxın perspektivdə sürətli inkişafı üçün yeni

imkanlar yaratmışdır. Xarici turistlərin ölkəyə cəlb olunması sahəsində həyata keçirilən çoxtərəfli infrastruktur layihələrinin həyata keçirilməsi (mehmanxana təsərrüfatının təkmilləşdirilməsi, mehmanxana və iaşə sahəsində servis xidmətlərinin müasir tələblər səviyyəsinə çatdırılması, optimal qiymət siyasətinin aparılması, yolların keyfiyyət dərəcəsinin artırılması, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, turistlərə bank xidmətlərinin göstərilməsində müasir informasiya texnologiyalarından geniş istifadə olunması və s.) son nəticədə daxili turizmin inkişafına imkan yaradacaqdır.

## ƏDƏBİYYAT


1. Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev. “Ekoloji turizm” Bakı, Adiloğlu, 2011
2. Hikmet Haberal. “Turizmdə Alternatif: Ekolojik Turizm, Doğa Turizmi, Yayla Turizmi”. Detay Yayıncılık, 2015
3. Uğur Akdu, İsmayıl Çalık. “Doğu Karadeniz Bölgesi Sürdürebilir Turizm Konqresi” Bildiri kitabı. 2015
4. David A.Fennell “Ecotourism”, 2017
5. Azərbaycanda turizm. Statistik məcmuə 2020
6. https://www.stat.gov.az/source/tourism/
7. http://chinarhotel.com/site.html
8. www.virtualkarabakh.az/read.php?lang=1&menu=32&id=79#.VxB_uvl97I
9. http://citytv.az/proza/cityplus-dunyada-tibbi-ve-mualicevi-saglamliq-turizimin-inkishaf-dinamikasi.html
10. http://www.medicaltourismassociation.com/en/research-and-surveys.html



***Вусал Вугар оглы Джафарли***

***Докторант Бакинского Евразийского Университета***


## Основные этапы и приоритеты регионального развития туризма в Азербайджане


***Резюме***

**Целью исследования** является определение и обоснование путей достижения целей и приоритетов, определенных концепциями развития и государственными программами развития туризма.

**Методика исследования.** В исследовательской работе были использованы методы логического обобщения, системного подхода, анализа и синтеза.

Прикладное значение исследования может быть связано с тем, что развитие туризма в стране ведет к увеличению государственного бюджета и доходов населения, к мировому признанию страны, а также способствует развитию смежных сфер производства и услуг.

**Результаты исследования.** В результате проведенного исследования выяснилось, что туристический сектор страны по-прежнему отстает от стран региона по разнообразию, качеству и уровню цен на услуги. Но достижение поставленных целей может привести к тому, что это отставание превратится в преимущества в краткосрочной перспективе.

**Оригинальность и научная новизна исследования.** В научной статье проанализированы направления регулирования специализированной туристской деятельности и рассмотрены вызовы современности в этой области. Проведен анализ мнений и суждений, содержащихся в научной литературе и интернет-пространстве по исследуемому вопросу, определены основные положения результата исследования.Научная новизна статьи заключается в анализе показателей развития туризма в период пандемии, оценке соответствующего потенциала и обосновании перспективных направлений его развития.

**Развитие туризма** - одно из основных направлений экономической политики страны в постнефтяной периоде. Потому что развитие туризма имеет большой экономический и социальный эффект для страны. Текущие меры, принимаемые для развития ненефтяного сектора, не оказывают существенного влияния на туристический сектор, поскольку пандемия ограничивает развитие туризма в глобальном масштабе. Снижение пандемии и освобождение территорий требует внедрения новых подходов к развитию туризма.

В представленной статье отражены направления достижения целей и приоритеты развития туризма.

***Ключевые слова: туризм, развитие, услуга, качество, прибыль, цена.***

***Vusal Vugar Jafarli***
***Doctoral student of Baku Eurasian University***

**The main stages and priorities of regional development of tourism in Azerbaijan**

***Summary***

The aim of the study is to identify and substantiate the ways in which tourism development can be achieved by the development concepts and the goals and priorities identified by government programmes.

**Methodology of the study.** Logical generalization, systematic approach, analysis and synthesis methods were used in the research work.

The significance of the study can be attributed to the fact that the development of tourism in the country contributes to the increase of the state biodiversity and population income, the country's worldwide recognition, as well as support the development of related industries and services.

**Results of the study.** As a result of the research, it was found that the country's tourism sector still lag behind the regional countries in terms of the range, quality and price of services. However, the achievement of the set goals can lead to the transformation of this backwardness into a short period of time.

URJ originality and scientific novelty of the study. The scientific article analyzes the directions of regulation of specialized tourism activities and considers the challenges of modern times in this field. The analysis of opinions and opinions in scientific literature and internet space on the subject was carried out, the main points of the research were determined.The scientific novelty of the article is an analysis of the indicators of Tourism Development during the pandemic period, an assessment of the relevant potential and justification of its perspektiv development directions.

Tourism development is one of the main directions of the country's economic policy in the post-oil period. Because the development of tourism has a great economic and social effect for the country. The current measures taken to develop the non-oil sector do not have a significant impact on the tourism sector, as the pandemic restricts tourism development on a global scale. Reducing the pandemic and liberating territories requires the introduction of new approaches to tourism development.

The presented article reflects the directions of achieving goals and priorities of tourism development.

***Key words: tourism, development, service, quality, profit, price.***